# Azərbaycanda mədəni turizm: uğur və çağırışlar

***Müsahibimiz Azərbaycan Turizm və Menecment Universitetinin professoru, tanınmış kulturoloq Minaxanım Əsədlidir***

***– Professor, mədəni turizm deyəndə nə başa düşülür?***

–Mədəni turizm turizmin çox mühüm və vacib sahəsidir. Burada xalqların tarixi mədəniyyət abidələri, bütün istiqamətli muzeyləri, teatrları, memarlıq abidələri və s. ilə əyani tanışlıq nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, son illər ölkəmizdə bütövlükdə turizmin, o cümlədən mədəni turizmin inkişafına diqqət və qayğı artıb. Bu sahədə uzun illər çalışan bir şəxs kimi deyə bilərəm ki, Azərbaycanda, həqiqətən, bu istiqamətdə görülən işlərin həcmi və vüsəti olduqca böyükdür.

***– Bəlkə konkret misallar çəkəsiniz?***

– Çəkə bilərəm. Məsələn, bir neçə il əvvəl Heydər Əliyev Fondu tərəfindən bərpa edilərək istifadəyə verilən Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksi hazırda minlərlə yerli və xarici turistlərin axışdığı məkanlardandır. Eləcə də, dövlətimizin dəstəyi ilə "Atəşgah" məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu cəlbedici turizm obyektinə çevrilib. Bundan əlavə, Abşeron təbiətinin bənzərsiz guşəsi olan Yanardağda təbiət və dövlət qoruğu yaradılıb. Bunlar, eləcə də dünya şöhrətli Qobustan Dövlət Tarixi-Bədii Qoruğu açıq səma altında muzeylərdir. Azərbaycan Milli Tarix Muzeyi, Azərbaycan Milli Ədəbiyyat Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi və digər muzeylər turistlərin ən çox ziyarət etdikləri məkanlardır.

***– Belə demək mümkündürmü ki, yaxın keçmişdə mükəmməl istirahətin etalonu dənizə səyahət, sanatoriya, kurort və istirahət evlərində dincəlmək sayılırdı, indi isə muzeylər...***

– Biz çox arzulayardıq ki, belə olsun. Amma, hər şeyin öz yeri var. Əlbəttə bu gün də Günəş, dəniz, istirahət evləri sağlamlığımız üçün vacibdir.

Lakin turistlər ölkə daxilində və xaricində istirahət etməklə bərabər, səyahət etdikləri ərazinin tarixini, mədəniyyət abidələrini öyrənməyi arzu edirlərsə, bunu yalnız alqışlamaq lazımdır.



Hər bir ölkədə mədəni turizmin inkişaf səviyyəsi sivil və mədəni tərəqqinin göstəricisidir. Yaxşı haldır ki, bizdə bu sahədə artıq qabaqcıl ölkələr sırasındayıq.

***– Belə bir fikir var ki, turizm sənayesi ölkələrdə inkişaf və rifahdan başlayır. Buna münasibətiniz...***

– Əlbəttə, turizmin inkişafı üçün ölkədə sabitliyin, əmin-amanlığın bərqərar olması, insanların rifah içində yaşamaları vacibdir.

Son illər ölkəmizdə insanların həyatı yaxşılığa doğru xeyli dəyişmişdir və vətəndaşlarımız üçün turizm həyati tələbata çevrilmişdir.

Azərbaycanda turizmin inkişafına dövlətimiz, möhtərəm Prezidentimiz İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva böyük dəstək verirlər.

***– Bölgələrimizdə bu sahədə vəziyyət necədir?***

– Son illər bölgələrimiz çox abadlaşıb, müasir yollar çəkilib, rahat otel və mehmanxanalar inşa edilib. Məsələn, İsmayıllı xarici turistlərin sevimli məkanıdır, Daşkəsən müalicəvi bulaqları və bitkiləri ilə məşhurdur, Naxçıvanda ekoturizmin inkişafı üçün əlverişli imkanlar var. Qəbələ çox maraqlı abidələr məkanıdır. Əmirli kəndindəki Alban məbədi (IV əsr), Nic kəndindəki Hacı Qərib məscidi və Çotari alban kilsəsi, Həzrə kəndindəki Şeyx Bədrəddin və Şeyx Mənsur türbələri (XV əsr), Şəfili kəndindəki məqbərə (XVII əsr), Həmzəlli Şıxbaba piri (XVI əsr) və digər abidələr Qəbələ rayonunda mədəni turizmin inkişafı üçün mühüm zəmin yaradır.

Azərbaycan turizmin inkişafı sahəsində böyük potensiala malik ölkədir. Bizim həm gözəl, füsunkar təbiətimiz, həm də şanlı tariximizin "daş yadigarları" sayılan maddi-mədəniyyət abidələrimiz var. Xalqımız mədəni və çox qonaqpərvərdir, bizdə tarixən qonaq-qaraya hörmətlə yanaşılıb, ehtiram göstərilib.

***– Turistləri muzeylərə daha çox cəlb etmək mümkündürmü?***

– Bunun müxtəlif üsulları var. Muzeylərin fəaliyyətini reklam etmək vacibdir. Son illər muzeylər barədə haqqında kitablar, kataloqlar nəşr olunur. Muzeylərimiz turist marşrutlarına salınır. Rus və ingilis dillərini mükəmməl bilən bələdçiləri olan muzeyləri turist marşrutlarına salmaq mümkün olur. Etiraf edək ki, muzeylərdə əməkhaqqı nisbətən aşağı olduğundan, gənc kadrlar burada işləməyə o qədər də həvəs göstərmirlər.

Xətrinizə dəyməsin, mətbuat, jurnalistlər də muzeylərin fəaliyyətinə lazımi diqqət göstərmirlər. Muzeylərdə çox maraqlı tədbirlər, məsələn yeni kitab təqdimatları, tarixi hadisələrlə bağlı sərgilər və yubileylər təşkil edilir. Belə tədbirləri media mümkün qədər çox işıqlandırmalıdır.

***– Biz bir məqamı unuduruq. Pandemiyanın ən çox zərər vurduğu sahələrdən biri, bəlkə də birincisi turizmdir.***

– Həqiqətən, belədir. Amma pandemiya gec-tez bitəcək, həyat əvvəlki axarına qayıdacaq. Çox sevindirici haldır ki, son günlər fəaliyyətə başlayan müəssisələr sırasında muzeylər ilklərdəndir. Təbii ki, zaman keçdikcə turizm obyektləri, otel və mehmanxanaların da fəaliyyəti bərpa olunacaq.

***– Muzeylərdə müasir texnologiyaların tətbiqi sahəsində vəziyyət necədir?***

– Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra müasir texnologiyalardan istifadə olunmaqla muzeylərin ekspozisiyası yenidən quruldu. Milli Xalça Muzeyi üçün müasir tələblərə cavab verən bina tikildi. Bakıda dahi bəstəkarımız Qara Qarayevin ev muzeyi müasir texnologiyaların uğurlu tətbiq olunmasına görə çox fərqlidir. Muzeyin dizaynı isveçrəli mütəxəssis tərəfindən veilib.

İstərdik ki, başqa muzeylərimizdə də yeni texnologiyalar geniş tətbiq edilsin. Bunun üçün xeyli vəsait tələb olunur. Hesab edirəm ki, ölkəmizin maliyyə imkanları artdıqca, digər böyük muzeylərimizdə də texnoloji baxımdan lazımi şərait qurmaq mümkün olacaq.

***– Dünyada çox az şəhər tapılar ki, bizim Bakıdakı qədər memorial ev muzeyləri olsun...***

– Bunun nəyi pisdir ki, əksinə, çox qürurverici haldır. Paytaxtda C.Cabbarlı, C.Məmmədquluzadə, Ü.Hacıbəyli, S. Vurğun (Qazaxda filalı da var), Bülbül, Abdulla Şaiq və digər ziyalılara həsr olunmuş ev muzeyləri var. Mən 15 ilə qədər A.Şaiqin mənzil muzeyində böyük elmi işçi kimi çalışmışam. Namizədlik və doktorluq dissertasiyamın tədqiqatı zamanı muzeydə mühafizə olunan nadir materiallardan istifadə etmişəm. A.Şaiqin və qardaşı, vətənpərvər ziyalı Yusif Ziyanın əsərlərini əski əlifbadan latın qrafikasına çevirərək nəşr etdirmişəm. Muzeyin əməkdaşları olaraq, biz A.Şaiqin bir neçə mənzum pozemasının tamaşalarını kiçik yaşlı qonaqlarımıza təqdim etmişik. "Tıq-tıq xanım" ilk tamaşamız oldu. Yeri gəlmişkən, mərhum Abdulla Şaiq əfəndi vaxtilə özü bir çox mənzum dram əsərlərinin rejissoru olub.

***– Ali və orta təhsil məktəblərinin muzeylərlə əlaqələri nə səviyyədədir?***

– Bu sahədə vəziyyət yaxşıdır. Muzey və məktəblər arasında birgə layihələr icra olunur. Bir çox muzeylərdə tədris proqramlarına uyğun dərslər keçirilir.

Azərbaycan Milli Tarix Muzeyinə yolum tez-tez düşür. Orada paytaxtın müxtəlif orta məktəblərinin tarix müəllimlərinin necə böyük həvəslə dərs keçdiklərinin dəfələrlə şahidi olmuşam.



***– Professor, yaxşı muzey işçisi olmaq üçün hansı keyfiyyətlər tələb olunur?***

– Muzey işçisi, ilk növbədə vətənpərvər insan olmalıdır. Milli-mənəvi dəyərlərimizə qəlbən bağlı olmalıdır. Vətənini, torpağını sevməli, tariximizi bilməli və təbliğ etməlidir. Muzey işçiləri, sevib-seçdikləri peşələrinə qəlbən bağlı fədakar insanlardır.

***– Bu gün ölkəmizdə turist kadrlarının hazırlığı necə gedir?***

– Ölkəmizdə peşəkar ali təhsilli turizm kadrları Azərbaycan Dövlət Mədəniyyət Universitetində və 2006-cı ildə məxsusi olaraq bu istiqamətdə təşkil olunan Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) hazırlanır. Bizim universitetdə turizm peşəsinin bir neçə istiqaməti üzrə bakalavr, magistr, həm də doktorantura dərəcələri səviyyəsində kadrlar hazırlanır. Yeri gəlmişkən deyim ki, ATMU-da muzeyşünaslıq ixtisasında təhsil alan tələbələrin bəzi dərsləri muzeylərdə tədris olunur. Bu üsul tələbənin peşəkar kadr kimi yetişməsinə kömək edir.

Fəxrlə qeyd etmək istərdim ki, bizim məzunlar bir neçə dildə sərbəst danışır. Buna görə də onlara hər yerdə ehtiyac var.

***– Daha çox sevdiyiniz turizm məkanı haradır?***

– Belə məkanlar çoxdur. Azərbaycanın hər bir guşəsinə səfər edərkən zövq və səfa duyuram. Amma qəlbimdə Şuşaya, Topxana meşəsinə, Cıdır düzünə gedə bilmədiyim üçün nisgil var.

2011-ci ildə ölkəmizin nümayəndə heyətinin tərkibində İranda olmuşam. Xahişimizi nəzərə alaraq, bizi bir gün Araz çayı üzərindəki tarixi Xudafərin körpülərini ziyarət etməyə apardılar. Nə gizlədim, hazırda erməni işğalı altında qalan torpaqlarımıza baxanda gözlərim yaşardı. Çox istərdim ki, Allah mənə həmin körpülərdən sərbət surətdə adlayıb Vətənə qovuşmaq şansı versin.

Əminəm ki, Milli Ordumuzun qeyrətli əsgər və zabitləri torpaqlarımızı tezliklə azad edəcəklər. O zaman bizim ən maraqlı turizm marşrutlarımız, məhz, Xudafərin körpülərindən, Şuşadan, Qarabağdan keçəcək.

**Söhbəti qələmə aldı:**
**Məsaim ABDULLAYEV,**
**"Xalq qəzeti"**